

***Kamran İsmayılov***
*AMEA Tarix və Etnologiya institututunun*
*Azərbaycan Xalq Cümhuriyyətinin tarixi şöbəsinin müdiri,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

# Azərbaycan Cümhuriyyəti (1918-1920-ci illər)

1917-ci ilin fevralında Rusiya imperiyasında baş vermiş inqilab çarizmin süqutu ilə başa çatdı. Çarizmin süqutundan sonra bütün keçmiş imperiyanın ərazisində olduğu kimi Cənubi Qafqazda da yeni hakimiyyət orqanları yaradılmağa başlandı. Martın 3-də regionda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə verildi. Martın 5-də isə Bakıda yeni hakimiyyət orqanı – İctimai Təşkilatlar Şurası və onun Müvəqqəti İcraiyyə Komitəsi təşkil edildi. Bu orqanlarla yanaşı müxtəlif yerlərdə hakimiyyətə iddiasını ortaya qoyan fəhlə, kəndli və əsgər deputatları sovetləri yaradılmışdı. Beləliklə, Rusiyanın digər yerlərində olduğu kimi, Cənubi Qafqazda, o cümlədən Azərbaycanda da faktiki olaraq ikihakimiyyətlilik formalaşdı.

Fevral inqilabından sonra Azərbaycanda xalqın siyasi və milli maraqlarının ifadəçisi rolunda çıxış etməyə çalışan siyasi təşkilatlar da meydana çıxmışdı tapmışdı ki, onlardan ən nüfuzlusu 1917-ci il martın 27-də yaradılmış Bakı Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi idi.

Fevral inqilabından sonra Azərbaycan ictimai-siyasi həyatında mühüm hadisə aprelin 15-20-də keçirilən Qafqaz müsəlmanları qurultayı oldu. Burada Azərbaycan milli qüvvələrinin siyasi mövqeyi aydın ifadə edildi. Qurultayda müzakirə olunan əsas məsələlərdən biri Rusiyanın gələcək siyasi quruluşu və müsəlmanların hüquqları məsələsi idi. Bu məsələ üzrə məruzə edən Məhəmməd Əmin Rəsulzadə müsəlman xalqlar üçün milli-ərazi muxtariyyətinin məqsədəuyğunluğunu göstərdi. Qurultayda onun məruzəsi əsasında Rusiyada federativ əsaslarla demokratik respublika dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini ən yaxşı təmin edən forma kimi tanınması barədə qətnamə qəbul edildi.

1917-ci il mayın 1-dən 11-nə qədər Moskvada keçirilmiş Ümumrusiya Müsəlmanlar qurultayının da müzakirə etdiyi ən mühüm məsələlərdən biri Rusiyanın gələcək dövlət idarə üsulu və müsəlman xalqların muxtariyyəti məsələsi idi. Yeni, demokratik Rusiyanın unitar və ya federativ dövlət olması, müsəlmanlar üçün milli-ərazi və ya milli-mədəni muxtariyyətin məqsədəuyğunluğu ətrafında

gedən müzakirələrdən sonra Moskva qurultayı da Azərbaycan milli təşkilatlarının müdafiə etdiyi ideyaları dəstəklədi.

Azərbaycan milli hərəkatının inkişafına 1917-ci il iyunun 20-də (yeni təqvimlə 3 iyulda) Məhəmməd Əmin Rəsulzadənin başçılıq etdiyi Müsavat partiyası ilə Fevral inqilabından sonra Gəncədə Nəsib bəy Yusifbəylinin başçılığı ilə yaradılmış Ədəmi-Mərkəziyyət Partiyasının birləşməsi mühüm təsir göstərdi. Qısa müddət ərzində Azərbaycan milli hərəkatının aparıcı siyasi qüvvəsinə çevriləcək birləşmiş partiya Türk Ədəmi-Mərkəziyyət Müsavat Partiyası adlandırıldı. Bunu həmin dövrdə keçirilmiş bir sıra seçkilərin nəticələri də təsdiq edirdi. 1917-ci il oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilərdə Müsavat partiyası 9617, eserlər 6305, bolşeviklər 3823, menşeviklər 687, daşnaklar 528 səs topladılar[1]. Bundan sonra Müsavat partiyası Cənubi Qafqazda hakimiyyət strukturlarının formalaşdırılması prosesinə ciddi təsir göstərməyə başladı.

1917-ci ilin oktyabrında Rusiyada bolşeviklərin hakimiyyəti ələ keçirmələri Azərbaycanda da siyasi vəziyyətin kəskinləşməsinə gətirib çıxardı. RSFSR Xalq Komissarları Sovetinə tabe olmaq istəməyən və Cənubi Qafqazı anarxiyadan qorumağa çalışan Gürcüstan Sosial-Demokrat Partiyası (menşeviklər), Müsavat partiyası, Daşnaksutyun partiyası və sağ eserlərin nümayəndələri noyabrın 15-də müstəqil Cənubi Qafqaz hökumətini - Zaqafqaziya Komissarlığını yaratdılar.

1917-ci ilin sonlarında Azərbaycanın və ümumiyyətlə, Cənubi Qafqazın siyasi həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri Ümumrusiya Müəssislər Məclisinə seçkilərin keçirilməsi oldu. Seçkilərin nəticələri Müsavat partiyasının Azərbaycanda ən nüfuzlu partiya olduğunu bir daha təsdiq etdi. Baxmayaraq ki, seçki komissiyaları və məntəqələri əsasən iri şəhərlərdə, qəza və dairə mərkəzlərində yaradılmış, böyük kəndli kütlələri faktik olaraq seçki prosesindən kənarda qalmışdı, səsvermənin nəticələrinə görə bütün Cənubi Qafqaz üzrə gürcü menşevikləri seçicilərin 26,9% (11 yer), Müsavat partiyası və müstəqil demokratik qrup 25,1 % (10 yer) səs topladılar. Bütövlükdə Azərbaycan siyasi qüvvələrinin topladıqları səslərin əksəriyyəti (66,5%) Müsavatın payına düşürdü. Bölgələrdə əhalinin əksəriyyəti də Müsavat partiyasına səs verdi. Rusiya bolşevikləri Müəssislər Məclisini qanuni hakimiyyət orqanı kimi tanımaqdan imtina etdikdən sonra Cənubi Qafqazdan həmin orqana seçilmiş nümayəndələrin 1918-ci il fevralın 23-də Tiflisdə keçirilmiş iclasında regionda ali hakimiyyət orqanının - Seym[*]in yaradılması qərara alındı)

1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində Bakıda hakimiyyət faktik olaraq Bakı Sovetinin və onun aparıcı qüvvə olan bolşeviklər partiyasının əlində idi.

---

[1] “Каспий”, 1917 г., 25 октября.

[*] “Seym” – polyak dilində “toplamaq” mənasını verir. Vaxtilə Rusiya imperiyasının tərkibində olmuş Polşa, Latviya və Litvada qanunverici və nümayəndəli orqan belə adlanırdı – Red.

1918-ci ilin Mart hadisələri ərəfəsində birbaşa Bakı Sovetinin sərəncamında olan qüvvələrlə yanaşı, tərkibi 10 minə çatan, Daşnaksutyun partiyasının təsiri altında olan xeyli sayda erməni hərbi hissələri də cəmlənmişdi. Faktiki olaraq Azərbaycan milli hərəkatına qarşı bolşeviklərlə daşnakların hərbi-siyasi birliyi yaranmışdı.

Soyqırımı "Evelina" gəmisində müsəlman hərbçilərin tərksilah edilməsi ilə başladı. Belə ki, həmin vaxt Lənkəranda olan təqribən 300 nəfərlik müsəlman divizionunun bir qrup əsgər və zabiti divizionda xidmət edən və silahdan istifadə zamanı ehtiyatsızlıq üzündən həlak olan Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin dəfnində iştirak etmək üçün martın 27-də Bakıya gəlmişdi. Ayın 29-da həmin dəstə "Evelina" gəmisi ilə yenidən Lənkərana yola düşməyə hazırlaşarkən Bakı Soveti dəstəni tərksilah etmək məqsədi ilə limana tərkibində əsasən ermənilərdən ibarət silahlı qvardiyaçılar göndərmiş və dəstə tabe olmaq istəmədikdə qvardiyaçılar güclə silahları onlardan almışdılar. Hadisə müsəlmanları çox hiddətləndirmişdi. Bu hadisədən bir bəhanə kimi istifadə edən bolşevik-daşnak qüvvələri Bakıda türk-müsəlman əhalisinin üzərinə hücuma keçdi. Siyasi baxışlarında kəskin fərqlər olmasına baxmayaraq Bakıda fəaliyyət göstərən bütün rus və erməni siyasi partiya və təşkilatları müsəlmanlara qarşı vahid cəbhədə, dini və milli zəmində birləşdilər. Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı cinayətlərini araşdırmaq üçün Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən 1918-ci il iyulun 15-də yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının (FTK) sənədlərindən aydın olur ki, 3 gün ərzində (30 mart – 2 aprel 1918-ci il) təkcə Bakıda 11 mindən çox türk-müsəlman yalnız milli-etnik mənsubiyyətinə görə qətlə yetirilmişdi. Azərbaycan xalqına qarşı törədilmiş bu soyqırımı aktı təkcə Bakı ilə məhdudlaşmadı.

Aprel ayının əvvəllərindən başlayaraq Bakı Sovetinin bolşevik-daşnak qoşunları Tatevos Əmirov, Stepan Lalayan, Hamazasp (Srvantsyan) və başqa daşnak canilərin rəhbərliyi ilə Bakıda başladıqları soyqırımı əməllərini Azərbaycanın bölgələrində də davam etdirdilər. Erməni-bolşevik silahlı birləşmələrinin hücumlarına məruz qalan Şamaxı şəhəri və Şamaxı qəzasının 110 kəndində 20 mindən artıq türk-müsəlman öldürüldü. Quba qəzasında 168 kənd yandırıldı və dağıdıldı, 4261 nəfər dinc sakin qətl edildi. Cavad, Lənkəran, Göyçay qəzalarının müsəlman əhalisi də erməni-bolşevik vəhşiliklərinə məruz qaldılar. Qanlı mart hadisələrindən sonra 1918-ci il aprelin 25-də S.Şaumyanın başçılığı ilə Bakı Sovetinin Xalq Komissarları Soveti yaradıldı və o, özünü RSFSR XKS-nin yerli hökuməti elan etdi. Sovetin silahlı qüvvələrinin 70-80 faizini erməni hərbi dəstələri təşkil edirdi.

1917-ci il dekabrın 5-də Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Türkiyə hərbi komandanlığı arasında barışıq sazişi bağlandı və tərəflər arasında sülh danışıqlarının aparılması haqqına razılığa gəlindi. Danışıqlar 1918-ci ilin mart-may

ayları ərzində əvvəlcə Trabzonda, sonra isə Batum şəhərlərində keçirildi. Seymə daxil olan siyasi qüvvələr arasında sülh və müharibə məsələlərinə münasibətdə kəskin ziddiyyətlər, Azərbaycan nümayəndələrinin ciddi səylərinə baxmayaraq Cənubi Qafqaz Seymi ilə Osmanlı imperiyası arasında sülh müqaviləsini bağlamağa imkan vermədi. Aprelin 22-də Seymin iclasında müstəqil Cənubi Qafqaz Demokratik Federativ Respublikasının yaradılması elan olundu. Lakin bu addım da Cənubi Qafqaz dövlətçiliyinin süqutunun qarşısını ala bilmədi. 1918-ci il may ayının 26-da Gürcüstanın müstəqilliyini elan etməsindən sonra Cənubi Qafqaz Seymi özünü buraxmaq haqqında qərar qəbul etdi.

### *Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi. Cümhuriyyətin yaradılması.*

Seymin buraxılması ilə yaranmış böhranlı siyasi vəziyyətlə əlaqədar Seymdəki Azərbaycan nümayəndələri mayın 27-də toplaşaraq Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürdülər və Azərbaycan Milli Şurasının yaradılmasını elan etdilər. Milli Şuraya M.Ə. Rəsulzadənin sədr seçilməsi onun Azərbaycan milli hərəkatının lideri olmasının növbəti təsdiqi oldu. Halbuki M.Ə.Rəsulzadə o zaman Tiflisdə deyildi və Batumda Cənubi Qafqaz nümayəndə heyətinin üzvü kimi Osmanlı hərbi komandanlığı ilə danışıqlar aparırdı.

Azərbaycan Milli Şurası mayın 28-də keçirdiyi ilk iclasında geniş müzakirələrdən sonra Azərbaycanın Cümhuriyyətinin yaradılmasını bildirən altı bəndlik "İstiqlal Bəyannaməsi"ni (Azərbaycan İstiqlalını Mübəyyin Əqdnamə) elan etdi. Bu tarixi aktda deyilirdi:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu gibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi xalq cümhuriyyəti olaraq təqərrür ediyor.

3. Azərbaycan Xalq Cümhuriyyəti* bütün millətlər və bilxassə həmcivar olduğu millət və dövlətlərlə münasibəti-həsənə təsisinə əzm edər.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrovində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

---

* Yeni yaradılmış dövlətin adı yalnız İstiqlal Bəyannaməsində "Azərbaycan Xalq Cümhuriyyəti" kimi gedir. Qalan bütün rəsmi sənədlərdə, blanklarda "Azərbaycan Cümhuriyyəti" termini işlədidiyindən biz də sonuncu termindən istifadə etməyi məqsədəuyğun hesab etmişik – red..

6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqətə durur”[2].

Bəyannamədə dövlət həyatının əsaslarının əks olduğunu nəzərə alsaq, bu sənədi Azərbaycan Cümhuriyyətinin (AC-nin) qanunvericilik sisteminin hüquqi əsasını təşkil edən və faktiki olaraq Əsas Qanun funksiyasını yerinə yetirən Konstitusiya aktı kimi səciyyələndirmək olar.

Milli Şura Fətəli Xan Xoyskinin başçılığı ilə Azərbaycanın ilk müvəqqəti milli hökumətini yaratdı.

Azərbaycan Milli Şurasının mayın 29-da keçirilmiş iclasında Azərbaycan və Ermənistan respublikaları arasında sərhədlə bağlı Erməni Milli Şurasının nümayəndələri ilə aparılmış danışıqların nəticələri müzakirə edildi. İclasda çıxış edən F.X.Xoyski erməni dövlətinin yaradılması üçün onlara siyasi mərkəz lazım olduğunu, belə mərkəzin isə Aleksandropol şəhərinin (indiki Gümrü şəhəri – red.) Türkiyəyə keçməsindən sonra yalnız İrəvan ola biləcəyini, ona görə də İrəvanın ermənilərə güzəştə edilməsinin “qaçılmaz” olduğunu bildirmişdi. Məsələ ilə bağlı çıxış edən bir sıra Şura üzvləri də İrəvanın ermənilərə güzəşt edilməsini “tarixi zərurət”, “qaçılmaz bəla” olduğunu etiraf etmişdilər. İclasda iştirak edən 20 nəfərdən 16 nəfər İrəvanın ermənilərə verilməsinə səs vermiş, 1 nəfər əleyhinə olmuş, 3 nəfər bitərəf qalmışdı[3]. Əslində Milli Şuranın 44 üzvündən yalnız 20-nin iştirak etdiyi və millətin taleyüklü məsələsinin həll olunduğu bu iclasda qəbul olunmuş qərar hüquqi cəhətdən legitim deyildi. Lakin Azərbaycanın siyasi rəhbərliyi bu qərarı qəbul edərkən iki qonşu xalq arasında sülhün və əmin-amanlığın təmin olunacağına, milli münaqişələrə son qoyulacağına, ermənilərin Azərbaycana qarşı ərazi iddialarından imtina edəcəklərinə ümid edirdilər. Lakin sonrakı proseslər bu ümidləri doğrultmadı. Mayın 30-da Erməni Milli Şurası Ermənistan Respublikasının rəsmən yaradılmasını elan etdi.

Ermənistan dövləti yaradıldıqdan sonra onun hüdudları daxilində qalmış türk-müsəlman əhalisinə qarşı soyqırımı və deportasiyalar həyata keçirildi. Ermənistan dövləti nəinki qonşularına ərazi iddialarından əl çəkmədi, əksinə, Azərbaycan Cümhuriyyətinin Naxçıvan, Zəngəzur, Qarabağ və digər ərazilərinə qarşı hərbi təcavüz hərəkətlərini daha da genişləndirdi.

Belə şəraitdə Azərbaycan hökuməti öz ərazi bütövlüyünü təmin etmək, dövlətin əsaslarını möhkəmləndirmək üçün müəyyən hərbi-siyasi tədbirlər həyata keçirdi.

1918-ci il iyunun 4-də Batumda Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında müqavilə bağlandı. Azərbaycanın müstəqil dövlət kimi

[2] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, siyahı 10, iş 192, v. 3.
[3] ARDA, F.970, s.1, iş 1, v.51

bağladığı ilk beynəlxalq sənəd olan Batum müqaviləsinə görə, Azərbaycanda Osmanlı imperiyasına geniş hərbi, siyasi və iqtisadi imtiyazlar verildi. Müqavilənin IV maddəsinə görə Osmanlı imperiyası Azərbaycana hərbi yardım göstərməyi öz üzərinə götürdü. Azərbaycana gəlmiş Osmanlı hərbi qüvvələri ilə Azərbaycanın milli hərbi qüvvələrinin bazasında Nuri paşanın (Nuri Killigil, 1889-1949) komandanlığı altında Qafqaz İslam Ordusu (QİO) yaradıldı və bu ordu Bakını azad etmək uğrunda mübarizəyə başladı.

Tiflisdəki 18 günlük fəaliyyətdən sonra Azərbaycan Milli Şurası və hökuməti 1918-ci il iyunun 16-da Gəncəyə köçdü. Bu zaman Gəncədəki Osmanlı hərbi komandanlığının Azərbaycan hökumətinə etimad göstərməməsi siyasi böhranla nəticələndi. Nəticədə F.X.Xoyskinin rəhbərliyi ilə yeni hökumət yaradıldı. Milli Şura isə özünü buraxdı.

Azərbaycan hökumətinin 19 iyun 1918-ci il tarixli qərarına əsasən ölkə ərazisində hərbi vəziyyət elan edildi. 1918-ci il iyul ayının 11-də isə müsəlman əhalinin orduya çağırılması haqqında qərar qəbul edildi.

Stepan Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin Xalq Komissarları Şurası yeni müstəqillik əldə etmiş Azərbaycan Cümhuriyyətini məhv etmək və daha sonra bütün Cənubi Qafqazı ələ keçirmək üçün 1918-ci il iyunun 6-da Gəncə üzərinə hücuma başladı. QİO ilə Bakı soveti qoşunları arasında iyun-iyul ayları ərzində baş vermiş döyüşlərdə bolşevik-daşnak qoşunlarının hücumunun qarşısı alındı.

Əks-hücuma keçən QİO-nun Bakı hərəkatı başlandı. QİO-nun uğurlu əməliyyatlarının nəticəsi olaraq 1918-ci il iyulun 31-də Bakı XKS öz səlahiyyətlərindən əl çəkmək məcburiyyətində qaldı. Bakıda hakimiyyət "Sentrokaspi" adlanan eser-menşevik-daşnak blokunun əlinə keçdi. Yeni qurum QİO-nun hücumlarının qarşısını almaq üçün Ənzəlidə olan ingilis ordusunu Bakıya dəvət etdi. Lakin ingilislərin gəlişi hərbi vəziyyəti dəyişmədi. Tərəflər arasında şiddətli döyüşlərdən sonra sentyabrın 15-də Bakı QİO tərəfindən azad edildi. Sentyabrın 17-də Bakıya köçən Azərbaycan hökuməti Bakı XKS-nin bütün tədbirlərini ləğv etdi. Qısa müddət ərzində Lənkəran, Qarabağ və Naxçıvan bölgələri istisna olmaqla bütün Şimali Azərbaycan ərazisində Cümhuriyyətin hakimiyyəti bərqərar oldu.

Birinci Dünya müharibəsi Almaniya-Osmanlı blokunun məğlubiyyəti ilə nəticələndi. 1918-ci il oktyabrın 30-da bağlanmış Mudros barışığına görə Türkiyə ordusunun tərk etməli olduğu Cənubi Qafqaz, o cümlədən Azərbaycan Antanta qoşunları tərəfindən işğal edildi. Özünü şəhərin hərbi qubernatoru elan etmiş general Tomsonun başçılığı altında ingilis qoşunları 1918-ci il noyabrın 17-də Bakıya daxil oldu.

Tomsonun əmri ilə Bakıda hərbi vəziyyət elan edildi. Neft sənayesini də nəzarətdə saxlamağa çalışan ingilislər bu məqsədlə Britaniya Neft İdarəsini təsis

etdilər. Doqquz ay ərzində - 1918-ci ilin dekabrından 1919-cu ilin avqustuna qədər Bakıda qalan ingilislər buradan 113,5 milyon manatlıq, 30 milyon puda qədər neft aparmışdılar. Ölkənin maliyyə, ərzaq ehtiyatları da ingilis komandanlığının sərəncamında idi. Tomson ölkədəki ictimai-siyasi vəziyyətlə tanış olduqdan sonra F.X.Xoyski hökumətini ölkədə yeganə mülki hakimiyyət kimi tanıdığını bildirdi. General Tomsonun bu mövqeyi antiazərbaycan qüvvələrin "vahid və bölünməz Rusiya"nın bərpa olunmasına bəslədikləri ümidləri puça çıxartdı, müttəfiq qoşunlarının Bakıya daxil olması ilə yaranmış dövlət müstəqilliyini təhdid edən təhlükəli vəziyyət Azərbaycan Cümhuriyyəti rəhbərliyinin səyləri nəticəsində aradan qaldırıldı.

Osmanlı qoşunlarının Cənubi Qafqazı tərk etməsi və buraya Antantanın təmsilçisi kimi Böyük Britaniya qoşunlarının daxil olması Azərbaycanda yeni şərait yaratdı. Belə şəraitdə ölkədə demokratik dövlət təsisatlarının formalaşdırılması Cümhuriyyət hökuməti qarşısında əsas vəzifələrdən biri kimi durdu. Öz fəaliyyətini yenidən bərpa etmiş Azərbaycan Milli Şurası 1918-ci il noyabrın 19-da müvəqqəti parlamentin – Məclisi-Məbusanın çağırılması haqqında qanun qəbul etdi. Qanunda ali orqanın təşkili prinsipləri kimi partiya təmsilçiliyi, milli təmsilçilik və inzibati-ərazi təmsilçilyi prinsipi əsas götürülmüşdü. Nəzərdə tutulan 120 deputatdan 80 nəfəri azərbaycanlıları, 21 nəfəri erməni, 10 nəfəri rus milli azlıqlarını, 4 nəfər də alman, yəhudi, gürcü və polyak azlıqlarını təmsil etməli idi. Azərbaycan Cümhuriyyəti Parlamentinin çağırılması ilə əlaqədar Azərbaycan Milli Şurası adından, onun sədri M.Ə. Rəsulzadənin imzası ilə 1918-ci il noyabr ayının 29-da "Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi dərc edildi. Müraciətnamədə parlamentin çağırılması məsələsinə aydınlıq gətirilir, milliyyətindən, dinindən və siyasi baxışlarından asılı olmayaraq bütün Azərbaycan vətəndaşları ali qanunverici orqanın yaradılmasında yaxından iştirak etməyə dəvət olunurdu[4].

Azərbaycan parlamenti 1918-ci il dekabrın 7-də öz fəaliyyətinə başladı. Parlamentin birinci iclasını Milli Şuranın və "Müsavat" fraksiyasının sədri M.Ə.Rəsulzadə açmış, həmin iclasda Əli Mərdan Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun müavini seçilmişdi. Topçubaşov Bakıda olmadığından sədr vəzifəsinin icrası müvəqqəti olaraq H.Ağayevə həvalə olundu. Parlamentin ilk iclaslarında fraksiyalar özlərinin gələcək fəaliyyətləri ilə bağlı bəyannamələrlə çıxış etdilər.

Yeni hökumət təşkil etmək təklifi alan Fətəli Xan Xoyski 1918-ci il dekabrın 26-da yaratdığı hökumətin tərkibini elan etdi. Deputatlara təqdim edilmiş hökumət bəyannaməsində Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi hökumətin əsas vəzifəsi kimi müəyyənləşdirilmişdi. Hökumət qarşısında duran ən başlıca

[4] Азербайджанская Республика: Документы и материалы. 1918-1920 гг., Баку: “Элм”, 1998, с.80-81

vəzifələrdən birinin də Azərbaycanın ərazi bütövlüyünü qoruya biləcək güclü ordu yaratmaq olduğu bildirildi. Yeni hökumətin işə başlamasından sonra general Tomson bu hökuməti ölkə ərazisində yeganə qanuni hakimiyyət kimi tanıdığını bildirdi.

Parlament daxilindəki qüvvələr nisbəti Xoyski hökumətinə nəzərdə tutduğu proqramı həyata keçirməyə imkan vermədi. 1919-cu il aprelin 14-də N.b.Yusifbəylinin başçılığı ilə yeni hökumət yaradıldı. Parlamentə təqdim edilmiş bəyannamədə Yusifbəyli hökumətin əsas vəzifələrindən birinin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi olduğunu göstərirdi. Bəyannamədə milli siyasət, fəhlə, aqrar məsələlər, ordu quruculuğu, neft siyasəti, mədəni maarif, insan azadlıqları ilə bağlı hökumətin mövqeyi öz əksini tapmışdı.

İqtisadi böhranın dərinləşməsi şəraitində fəhlə hərəkatının və bolşevik təbliğatının güclənməsi respublikada daxili siyasi vəziyyəti daha da gərginləşdirirdi. 1918-ci ilin mayında fəhlələrin ağır sosial vəziyyətini əsas gətirərək bolşeviklər fəhlələri ümumi tətilə çağırsa da, hökumətin və parlamentin qətiyyətli addımları sayəsində, tətil baş tutmadı. Azərbaycan fəhlələri də dövlət əleyhinə çağırışları müdafiə etmədilər.

Daxili çətinliklərə baxmayaraq ölkənin müstəqilliyi üçün əsas təhdidlər onun xaricindən qaynaqlanırdı. Azərbaycanın taleyi daha çox dünya səhnəsində baş verən hadisələrlə, ilk növbədə, Sovet Rusiyası ilə bağlı idi. "Vahid və bölünməz" Rusiyanın bərpa edilməsi uğrunda vuruşan Denikin ordusu sürətlə cənuba doğru irəliləyərək Azərbaycanla Sovet Rusiyası arasında bufer dövlət rolunu oynayan Dağlılar Respublikasını süquta uğratdıqdan sonra Azərbaycan üçün real təhlükə yarandı. Azərbaycan hökuməti Denikin təhlükəsinin aradan qaldırılması üçün bir sıra hərbi, siyasi-diplomatik tədbirlər həyata keçirdi. 1919-cu il mayın 29-da Tiflisdə keçirilən Cənubi Qafqaz respublikalarının konfransında Azərbaycan XİN F.X.Xoyskinin təşəbbüsü ilə Denikinin işğalçılıq hərəkətlərini pisləyən qətnamə qəbul etdi. 1919-cu il iyunun 14-də N.Yusifbəylinin sədrliyi ilə yaradılmış Dövlət Müdafiə Komitəsi bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. Ancaq ingilislərin mövcud şəraiti Denikinə güzəştlər edilməsi hesabına yüngülləşdirmək cəhdləri vəziyyəti daha da gərginləşdirirdi. Denikin təhlükəsinin artması şəraitində Azərbaycan və Gürcüstan hökumətləri öz aralarında hərbi müqavilə bağlamağı qərara aldılar. Bu barədə Ermənistan hökumətinə də müraciət edilsə də o bu ittifaqa qoşulmaqdan imtina etdi. 1919-ci il iyun ayının 16-da Denikin təhlükəsinə qarşı Azərbaycanla Gürcüstan arasında imzalanan hərbi-müdafiə paktına görə, Azərbaycanın və Gürcüstanın müstəqilliyi və ərazi bütövlüyünə qarşı hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqavilədə olan tərəflər üç il müddətində bir-birinə hərbi yardım göstərməyə borclu idilər.

1919-cu il avqustun sonlarında Antanta qoşunları Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan çıxarıldı. Bu hadisə ölkənin daxili siyasi həyatına heç bir təsir göstərmədi, gənc respublika müstəqil yaşamaqda davam edirdi.

1919-cu ilin ikinci yarısında respublikada iqtisadi və siyasi vəziyyət mürəkkəb olaraq qalmaqda davam edirdi. Bu vəziyyət, eləcə də hakim koalisiyada təmsil olunan siyasi partiyalar arasında birliyin olmaması növbəti hakimiyyət böhranına gətirib çıxardı. Lakin bu müddətdə parlament və bütün nazirliklər fəaliyyət göstərməkdə davam edirdi. Hakimiyyət böhranının davam etməsinə baxmayaraq, respublikada demokratiyanın, vətəndaşların hüquq və azadlıqlarının real müdafiəsi istiqamətində mühüm əhəmiyyətli addımlar atılırdı. 1919-cu il oktyabrın 30-da parlament tərəfindən qəbul edilmiş "Mətbuat haqqında Nizamnamə" Azərbaycanda demokratik və azad mətbuatın inkişafı üçün real imkanlar açırdı. Bu qanunun qəbul edilməsi söz azadlığı sahəsində Azərbaycanı qabaqcıl dünya ölkələrlə bir sıraya qoyurdu.

Ölkədə partiyalararası münasibətlərdə də ciddi canlanma baş verirdi. 1919-cu il oktyabrın 23-də onlar “Müsavat” fraksiyası ilə “Bitərəflər qrupu”nun "Müsavat və bitərəflər" adı altında bir fraksiyada birləşməsi müsavatçıların mövqeyini daha da gücləndirdi. Həmin dövrdə respublikanın siyasi həyatında bir sıra mühüm hadisələr baş verirdi. Bunlar arasında "Müsavat" Partiyasının 1919-cu il dekabrında keçirilmiş II qurultayı xüsusi yer tutur. Qurultayda partiyanın II proqramı qəbul edilməklə yanaşı ölkə həyatının aktual məsələlərinə (hakimiyyət məsələsi, fəhlə və aqrar məsələlər, Qarabağda vəziyyət, Denikin təhlükəsi və s.) dair qərarlar da qəbul olundu.

Fraksiyalar arasında prinsipial razılıq əldə edildikdən sonra 1919-cu il dekabrın 22-də parlament N.b.Yusifbəylinin formalşdırdığı, bütün parlament partiyalarının daxil olduğu yeni koalisyon hökumətin tərkibini təsdiq etdi.

## *Ordu quruculuğu*

Qarşıda duran ən mühüm vəzifələrdən biri ölkənin ərazi bütövlüyünün təmin edilməsi məqsədi ilə milli ordunun yaradılması idi. Hələ Nazirlər Şurasının 1918-ci il 1 noyabr tarixli qərarı ilə Azərbaycan Cümhuriyyətinin Hərbi Nazirliyi bərpa edilmişdi. Hərbi Nazirliyin bərpa edilməsindən iki həftə sonra, 1918-ci il noyabr ayının 15-də Ümumi qərargahın təsis edilməsi haqqında Səməd bəy Mehmandarovun müvafiq əmri imzalandı və Həbib bəy Səlimov Ümumi qərargahın rəisi təyin edildi. Lakin Bakıya daxil olmuş ingilis hərbi qüvvələrinin komandanı general V.Tomson Azərbaycanın bütün milli hərbi qüvvələrinin ölkə

paytaxtından uzaqlaşdırılmasını tələb etdiyi üçün 1918-ci il noyabr ayının 22-də Hərbi Nazirlik Gəncəyə köçməli və öz fəaliyyətini burada davam etdirməli oldu. Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə tam artilleriya generalı S. Mehmandarov hərbi nazir, 29 dekabr 1918-ci il tarixli qərari ilə isə general-leytenant Əliağa Şıxlinski hərbi nazirin müavini vəzifəsinə təyin edildilər. Bu qərarlar Cümhuriyyət ordusunun formalaşdırılması sahəsində Azərbaycan hökumətinin qəbul etdiyi tarixi qərar oldu.

Yeni dəyərlər üzərində qurulan ordunun milli hərbçi kadrlarının hazırlanması da Hərbi Nazirliyin rəhbərliyinin qarşısında dayanan mühüm vəzifələrdən biri idi. Bu vəzifənin həllinə nail olmaq üçün hələ 1918-ci il mart ayının 1-də əsası qoyulmuş Milli Hərbiyyə Məktəbinin (Podpraporşiklər məktəbi) fəaliyyəti yenidən quruldu və onun statusu artırılaraq Praporşiklər məktəbinə çevrildi. Bu məktəbdən başqa Cümhuriyyət Ordusu tərkibində milli hərbçi kadrlar hazırlayan İstehkam məktəbi, Hərbi dəmiryolçular məktəbi və Hərbi feldşer məktəbi də açılmışdı. Hərbi nazirin əmri ilə 1919-cu il mart ayının 26-da Baş Ərkani-hərb təsis edildi və general-leytenant Məmməd bəy Sulkeviç onun rəisi təyin edildi. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər sayəsində Azərbaycanda 35 min nəfərlik ordu yaradılmışdı.

## *Ərazi bütövlüyü məsələsi*

Bu dövrdə regionda yaranmış vəziyyəti və beynəlxalq şəraiti "Böyük Ermənistan" ideyasının reallaşdırılması üçün əlverişli sayan ermənilər Azərbaycanın Naxçıvan, Qarabağ və Zəngəzur bölgələrinə silahlı müdaxilə edərək, bu bölgələrin dinc türk-müsəlman əhalisinə qarşı kütləvi qətliamlar törətdilər. Silahsız insanlara qarşı vəhşiliklər törətmiş silahlı dəstələrdən birinə Andranik Ozanyan başçılıq edirdi. Osmanlı İmperiyası ilə Ermənistan Respublikası arasında bağlanmış Batum müqaviləsini tanımaqdan imtina edən Andranik 1918-ci ilin yayında Naxçıvanın hüdudlarına soxularaq burada yerli müsəlman əhaliyə qarşı zorakılıqlar törətmiş, bolşeviklərin himayəsini qazanmaq üçün Naxçıvanı Sovet Rusiyasının ayrılmaz hissəsi elan etmişdi. Türk qoşunlarının təzyiqi altında Zəngəzura qaçmağa məcbur olmuş Andranik burada da dinc müsəlmanlara qarşı soyqırımı siyasətini davam etdirmişdir. Bütövlükdə həmin dövrdə ermənilərin həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasəti nəticəsində Zəngəzur qəzasında 10 mindən çox türk-müsəlman soyqırımın qurbanı oldu. İrəvan quberniyasında 200-dən artıq müsəlman kəndi dağıdıldı, əhalisinin bir qismi məhv edildi, bir qismi isə qaçqın və məcburi köçkünə çevrildi. Bütövlükdə həmin illərdə soyqırımı aktları nəticəsində ümumilikdə Azərbaycan üzrə 900-dən artıq

müsəlman kəndi dağıdıldı və yandırıldı, 100 mindən artıq türk-müsəlman qətlə yetirilərək məhv edildi.

Ermənistanın Naxçıvan və Zəngəzurda təcavüzünün genişləndiyi bir vaxtda Qarabağın dağlıq hissəsində də erməni separatizmi baş qaldırdı. Belə ki, Ermənistanın siyasi təbliğatı və güclü hərbi yardımı nəticəsində Qarabağın dağlıq hissəsində kök salmış ermənilər 1918-ci ilin iyul və sentyabr aylarında keçirdikləri qurultaylarda bu mahalın müstəqilliyini elan etdilər. Bunun ardınca isə 1918-ci ilin payızında Zəngəzurun bir hissəsində möhkəmlənən Andranik burada bir növ erməni "qubernatorluğu" təşkil edərək, Gorusu onun "mərkəzi"nə çevirdi, sonra da paytaxtı Şuşa olacaq "Kiçik Ermənistan" dövlətinin yaradıldığını elan etdi.

Osmanlı qoşun hissələrinin Azərbaycandan çıxması ilə dövlətin bütövlüyü və onun əhalisinin taleyi yenidən təhlükə qarşısında qaldı. İstər Azərbaycan hökuməti, istərsə də Naxçıvan, Qarabağ və Zəngəzur bölgələrindəki milli-vətənpərvər siyasi qüvvələr tərəfindən Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi istiqamətində məhəlli səciyyə daşıyan müəyyən tədbirlər görülürdü, bu baxımdan Naxçıvan və ətraf əraziləri əhatə edən “Araz-Türk hökuməti” adlı dövlət qurumunun yaradılması mühüm əhəmiyyət kəsb edirdi. Bu qurum 1918-ci ilin noyabrında yaranmış və təxminən 1919-cu ilin martınadək fəaliyyət göstərmişdi.

Birinci Dünya müharibəsinin nəticələrindən ruhlanan Ermənistan Naxçıvanı ələ keçirmək üçün ingilislərin Qafqazda hərbi iştirakından yararlanmağa cəhd göstərdi. 1919-cu ilin yanvarında Naxçıvan bölgəsinə çox az sayda ingilis hərbi qüvvələri gətirildi. Bununla eyni vaxtda Ermənistanın qoşun hissələri Zəngəzur və Qarabağ bölgələrinə qarşı təcavüzü daha da genişləndirdilər. Bu dövrdə Şərurda erməni nizami qoşunları üzərində mühüm qələbə qazanılsa da bölgədə vəziyyət gərginləşməkdə idi. Belə bir şəraitdə ingilislər Naxçıvan bölgəsini müvəqqəti bitərəf zona elan edərək, burada general-qubernatorluq yaratdıqlarını bildirdilər. İngilislərin Naxçıvanda qaldıqları müddət ərzində Azərbaycan rəhbərliyi bu ərazi üzərində öz suveren hüquqlarını müdafiə edirdi. Naxçıvanın türk-müsəlman əhalisinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almaq, bölgəni Şimali Azərbaycanın digər torpaqları ilə birləşdirmək sahəsində hökumət müəyyən tədbirlər həyatda keçirirdi.

Azərbaycan parlamentinin 1919-cu il yanvarın 8-i və 25-də olan iclaslarında Naxçıvan bölgəsi və ümumiyyətlə, keçmiş İrəvan quberniyasının azərbaycanlı əhalisinin vəziyyəti ilə bağlı məsələlər müzakirə edildi. Keçmiş İrəvan quberniyası türk-müsəlman əhalisinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısının alınması, Azərbaycanın cənub-qərb bölgələrinin ərazi toxunulmazlığının təmin olunması istiqamətində müəyyən tədbirlər görüldü. Azərbaycan Cümhuriyyətinin Ermənistanda təsis edilmiş diplomatik nümayəndəliyi bu istiqamətdə çox mühüm rol oynadı. Azərbaycan parlamentinin üzvü Məhəmməd xan Təkinski 1919-cu il

yanvarın 29-da İrəvana səfir təyin edildi. Naxçıvan üzərində suverenliyinin təmin edilməsində Azərbaycan hökumətinin Naxçıvan (Cənub-Qafqaz Azərbaycan) general-qubernatorluğunun yaradılması Bəhram xan Naxçıvanskinin general-qubernator təyin edilməsi haqqında 1919-cu il 28 fevral tarixli qərarı mühüm rol oynadı.

Ermənilər ingilislərin himayəçiliyi ilə Naxçıvan mahalında öz idarəçiliyini yaratmağa cəhd göstərmiş, 1919-cu il mayın ortalarından iyulun ortalarınadək burada erməni idarəçiliyi mövcud olmuşdu. Yerli azərbaycanlı əhali ermənilərin idarəçiliyini rədd edərək ona ciddi müqavimət göstərdi. 1919-cu il iyulun ikinci yarısında aparılan uğurlu döyüşlər erməni "idarəçiliyi"nin bölgədən qovulması ilə nəticələndi.

Osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra Zəngəzur mahalında da siyasi–hərbi vəziyyət xeyli kəskinləşdi, bölgənin türk-müsəlman əhalisi yenidən zorakılıq və məhrumiyyətlərə məruz qaldı. Ermənistan hökuməti tərəfindən maliyyələşdirilən və təchiz olunan Andranik və onun quldur dəstəsi Zəngəzurda yeni-yeni özbaşınalıq və vəhşiliklər törədirdi. 1918-cu ilin yay-payız aylarında Zəngəzurun 115 böyük türk-müsəlman kəndi məhv edilmişdi. Zəngəzur qəzasından qaçqın düşənlərin sayı 50 minə çatmışdı. Erməni silahlı dəstələrinin özbaşınalıqlarının qarşısının alınması məqsədilə Azərbaycan parlamentinin 15 yanvar 1919-cu il tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üzrə müvəqqəti general-qubernatorluq yaradılması qərara alındı, yanvarın 29-da Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə təsdiq edildi.

Azərbaycan hökumətinin Qarabağ ermənilərinə münasibətdə yürütdüyü sülhsevər siyasət bu diyarda mövcud olan ümumi vəziyyətin tədricən dinc məcraya yönəlməsində mühüm rol oynadı. 1919-cu il avqustun 15-də Qarabağın dağlıq hissəsində yaşayan ermənilərin 7-ci qurultayı yekdilliklə Azərbaycan hökuməti ilə bağlanmış razılaşmanın şərtlərini qəbul etdi[5]. Həmin razılaşma ilə Qarabağ erməniləri Azərbaycan dövlətinə tabe olduqlarını qəbul etdilər.

Hökumətin daxili siyasi sabitliyin təmin olunması, ordu quruculuğu sahəsində atdığı addımlar ölkənin cənub bölgəsində (Lənkəran və Cavad qəzalarında) da rus separatizmini ləğv etməyə və bu bölgədə Cümhuriyyətin suverenliyini təmin etməyə imkan verdi. Cümhuriyyətin elan edilməsindən sonra vaxtilə çar hökuməti tərəfindən Rusiyanın mərkəzi quberniyalarından köçürülərək burada yerləşdirilmiş təriqətçi rus əhalisi, eləcə də burada qalmış rus qoşun və sərhəd hissələri müxtəlif qanunsuz qurumlar və hərbi dəstələr yaradaraq Rusiyadan (istər bolşeviklərdən, istərsə də denikinçilərdən) mütəmadi hərbi, maliyyə dəstəyi alır. yerli əhalini vahimə altında saxlayırdılar. Müxtəlif siyasi mövqelərinə baxmayaraq bu qüvvələrin hamısı Azərbaycan dövlətçiliyini tanımaqdan imtina edir, bu əraziləri

[5]“Азербайджан”, 1919 г., 2 сентября

Rusiyanın ayrılmaz tərkib hissəsi olduqlarını bildirirdilər. Azərbaycan hökumətinin bu ərazisində vəziyyəti dinc yolla nizamlamaq cəhdləri uzun müddət nəticə vermirdi. Nəhayət, 1919-cu ilin avqustunda Cümhuriyyət ordusunun hərbi hissələri cənub bölgəsinin Azərbaycan hökumətinə tabe olmayan qiyamçı qüvvələrdən təmizlənməsi məqsədilə uğurlu əməliyyat keçirərək Lənkəran qəzasında Cümhuriyyət hakimiyyətini bərqərar etdilər.

1919-cu ilin payızında Ermənistanın Zəngəzurda təcavüzkarlıq hərəkətləri daha da geniş miqyas aldı. Ermənistanın Zəngəzuru tamamilə işğal etmək cəhdlərinin qarşısını almaq üçün Azərbaycan hökuməti general-mayor Cavad Şıxlinskinin komandanlığı altında məhdud qoşun kontingentini 1919-cu il oktyabrın sonlarında bölgəyə göndərməyə məcbur etdi. Azərbaycan hökumətinin bu tədbirini Zəngəzurun daxili işlərinə müdaxilə və dinc əhaliyə qarşı silahlı əməliyyat kimi qələmə verən Ermənistan beynəlxalq arenada diplomatik qalmaqal saldı. 1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycan və Ermənistan hökumət başçılarının görüşündə tərəflər silahlı qarşıdurmanın dayandırılmasını və bütün mübahisəli məsələlərin sülh konfransında həll edilməsini öhdələrinə götürdülər. Azərbaycan hökuməti razılaşdırılmış məsələlərin həllini gözləmədən öz qoşun hissələrini Zəngəzurdan çıxartsa da Ermənistan hökuməti bu şəraitdən faydalanaraq, dərhal bölgəyə əlavə nizami silahlı qüvvələr yeritdi, orada hərbi əməliyyatların yeni və daha irimiqyaslı mərhələsinə başladı. 1919-cu il dekabrın 14-21-də Bakıda keçirilmiş Azərbaycan-Ermənistan konfransında Azərbaycan tərəfinin ilk növbədə ərazi və sərhəd problemlərini müzakirə etmək təklif Ermənistan tərəfindən rədd edildi.

1920-ci il yanvarın ikinci yarısından etibarən Ermənistanın Azərbaycana qarşı təcavüzünün yeni, daha faciəvi mərhələsi başladı. Təcavüzün dayandırılması üçün Azərbaycanın hökumətinin çoxsaylı tələblərinə Ermənistan tərəfi məhəl qoymadı. 1920-ci il mart ayının 22-də, Novruz bayramı günlərində erməni hərbi qüvvələri eyni vaxtda Şuşada, Xankəndində, Əsgəranda, Xocalıda və Tərtərdə yerləşən Cümhuriyyət ordusu bölmələri üzərinə hücuma keçdilər. Ermənistan hərbi qüvvələri Qarabağ ərazisindəki separatçı qüvvələrlə birlikdə müxtəlif istiqamətlərdən Azərbaycan ərazilərinin işğalına cəhd göstərdilər: İlk növbədə Qarabağda erməni təcavüzünün qarşısının alınması üçün general-mayor H.b.Səlimovun başçılığı altında xüsusi qoşun dəstəsi yaradıldı. 1920-ci il aprel ayının 3-də güclü döyüşlərdən sonra Əsgəran və Xocalı erməni hərbi qüvvələrindən təmizləndi, aprelin 9-dan 12-dək gərgin döyüşlər nəticəsində isə Qarabağdakı erməni qüvvələrinin əsas bazaları məhv edildi. Bununla da Qarabağda Azərbaycanın dövlət suverenliyi bərpa olundu.

Qarabağda uğurlu döyüşlərdən sonra Azərbaycan qoşunları qarşısında Zəngəzur istiqamətində hərbi əməliyyatlar keçirmək vəzifəsi qoyuldu. Sovet

Ordusunun müdaxiləsi nəticəsində Cümhuriyyətin mövcudluğuna son qoyulması bu vəzifənin yerinə yetirilməsinə imkan vermədi. Hərbi münaqişə Azərbaycan hökumətini əsas ordu qüvvələrini respublikanın qərb sərhədlərində yerləşdirməyə vadar etdi ki, bu da şimal sərhədlərinin xeyli zəifləməsinə gətirib çıxartdı.

Azərbaycan Cümhuriyyətinin mövcudluğu zamanı onun ərazisi, 97.297.67 kv.km mübahisəsiz, 16.598.30 kv.km-i mübahisəli olmaqla 113.895.97 kv.km təşkil etmişdi[6].

### *Sosial-iqtisadi siyasət*

Azərbaycan hökuməti qarşısında duran əsas vəzifələrdən biri də Birinci dünya müharibəsi, sonrakı siyasi proseslər nəticəsində dağıdılmış iqtisadiyyatın bərpa edilməsi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, torpaq məsələsinin həll edilməsi idi. Respublikadakı iqtisadi vəziyyət isə mürəkkəb olaraq qalırdı.

Azərbaycan hökuməti dövlətin əsas iqtisadi sahəsi olan neft sənayesini böhrandan çıxarmaq üçün müəyyən tədbirlər həyata keçirmiş, parlament isə bu məqsədlə bir sıra qanunverici sənədlər qəbul etmişdi. Neft Azərbaycan iqtisadiyyatının əsasını təşkil etdiyindən hökumət onun ixracını bərpa etməyə çalışırdı. Rusiya bazarı respublika üçün məlum səbəblərə görə itirildiyindən əsas diqqət nefti dünya bazarına çıxarmağa imkan verən Bakı-Batum neft kəmərinin işinin bərpa edilməsinə yönəldilmiş, 1918-ci il dekabrın 12-də kəmər yenidən fəaliyyətə başlamışdı.

Kənd təsərrüfatı neft sənayesi ilə birlikdə Azərbaycan iqtisadiyyatının əsasını təşkil edirdi. Buna görə də, torpaq məsələsi ən kəskin iqtisadi, sosial və siyasi məsələlər sırasında dururdu. Torpaq islahatını həyata keçirmək üçün həm hökumət, həm də parlament səviyyəsinə müxtəlif layihələr hazırlansa da siyasi şərait, siyasi qüvvələr arasında bu məsələdə vahid mövqenin olmaması bu layihələri reallaşmadırmağa imkan vermədi. Nəticədə Cümhuriyyətin mövcudluğu dövründə aqrar islahat sahəsində hər hansı təsirli tədbirlər həyata keçirmək mümkün olmadı.

Cümhuriyyət hökuməti müstəqil maliyyə, vergi, gömrük sisteminin formalaşdırılması üçün də bir sıra mühüm qərarlar qəbul etmişdi. 1919-cu il sentyabrın 30-da Dövlət Bankının təntənəli açılışı olmuşdu. Cümhuriyyət dünyanın bir sıra ölkələri, o cümlədən Türkiyə, Gürcüstan, Ermənistan, Dağıstan, İran, İngiltərə, Amerika, Fransa, İtaliya ilə qarşılıqlı iqtisadi əlaqələr qurmağa nail olmuşdu. 1920-ci ilin yanvarında Azərbaycan hökuməti ilə ABŞ arasında ticarət müqaviləsi bağlanması haqqında razılaşma əldə edilmişdi. Azərbaycan hökuməti ilə İngiltərə arasında 1919-cu il mayın 23-də ticarət müqaviləsi imzalanmışdı.

---

[6] Адрес-календарь Азербайджанской Республики на 1920 год. Под ред. Ставровского. Типография газеты Азербайджан, Баку, часть 2, с.50

Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması Azərbaycan hökumətinin sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Bu istiqamətdə həm Nazirlər Şurası, həm də Parlament tərəfindən bir neçə mühüm qərar və qanun qəbul edilmişdi.

### *Xarici siyasət*

Azərbaycan Cümhuriyyəti dövlətin müstəqilliyinin beynəlxalq birlik tərəfindən tanınmasını, müxtəlif dövlətlərlə qarşılıqlı faydalı əlaqələrin yaradılmasını öz fəaliyyətinin əsas istiqamətlərindən biri hesab edirdi. Azərbaycan dövlətinin xarici siyasəti qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə qarşılıqlı faydalı münasibətlərin yaradılması idi. Müharibədə məğlubiyyətdən sonra çətin vəziyyətə düşmüş Türkiyə ilə də əlaqələr bərpa edilməyə başlamış, Yusif Vəzir Çəmənzəminli İstanbula səfir təyin edilmişdi. Azərbaycan hökuməti qonşu Gürcüstan Respublikası və Dağlılar Respublikası ilə mehriban qonşuluq münasibətləri yaratmağa nail olmuşdu.

Azərbaycan diplomatiyası Ermənistan Respublikası ilə qarşılıqlı münasibətlər yaratmağa çalışsa da Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, Naxçıvanda, Zəngəzurda, Qarabağda hərbi təcavüz siyasəti bu münasibətlərə xələl gətirirdi. Buna baxmayaraq Azərbaycan Ermənistanla əlaqələri tənzimləmək üçün bütün vasitələrdən istifadə edirdi. İrəvanda Azərbaycanın xüsusi nümayəndəliyi, Bakıda isə Ermənistanın nümayəndəliyi fəaliyyət göstərirdi.

Azərbaycanın coğrafi mövqeyi, uzun müddət ərzində Rusiya imperiyasının tərkibində olması, tarixi qarşılıqlı iqtisadi, mədəni münasibətlərin mövcudluğu Sovet Rusiyası ilə normal münasibətlərin yaradılmasını tələb edirdi. Yeni iqtisadi əlaqələrin hələ yaradılmadığı və ənənəvi əlaqələrin pozulduğu bir vaxtda Azərbaycanın neft, pambıq və digər məhsullarının Rusiya bazarından məhrum olması Azərbaycan hökumətinin şimal qonşusu ilə münasibətlərin normallaşdırmasını zəruri edirdi. Hökumət Sovet Rusiyası ilə iqtisadi-ticarət əlaqələrinin bərpasını bir vəzifə kimi qoymuşdu. Lakin bolşeviklər Azərbaycanın müstəqilliyini tanımaqdan imtina edərək onun sərvətlərinə, xüsusən neftinə sahib olmağı özlərinin əsas hərbi vəzifələrindən biri kimi müəyyənləşdirmişdilər.

Azərbaycan nümayəndə heyətinin Paris Sülh konfransında Cümhuriyyətin müstəqilliyini tanıtmaq uğrunda mübarizəsi Azərbaycan diplomatiyası tarixinin mühüm səhifəsini təşkil edir. Azərbaycan Cümhuriyyəti Paris sülh konfransında iştirak etmək üçün Ə.M.Topçubaşovun sədrliyi ilə nümayəndə heyəti göndərmişdi. Nümayəndə heyəti Parisdə bir sıra mühüm görüşlər keçirmiş, o cümlədən ABŞ prezidenti Vudro Vilsonla görüşərək ona Azərbaycanın mövqeyini çatdırmışdı. Azərbaycan nümayəndə heyəti Paris Sülh Konfransına təqdim edilməsi üçün

mühüm sənəd – Memorandum hazırlamışdı. Sənəddə Azərbaycanın tarixi, coğrafiyası, iqtisadi və etnik vəziyyəti haqqında məlumatlar öz əksini tapmışdı. Ən mühüm görüşlərdən biri İran nümayəndələri ilə olmuş, 1919-cu il noyabrın 1-də iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasına dair razılıq əldə edilmişdi. 1920-ci il martın 20-də Azərbaycanla İran arasında bağlanmış sülh və dostluq haqqında müqavilə ilə İran Azərbaycanın müstəqilliyini de-yure tanıdı.

Azərbaycan nümayəndə heyətinin Paris Sülh konfransında apardığı gərgin işlərin nəticəsi olaraq nəhayət, 1920-ci il yanvarın 11-də Antanta ölkələrinin Ali Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanındı. Azərbaycan dövlətinin beynəlxalq birliyin üzvünə çevrilməsi kimi qəbul edilən bu hadisə ölkədə böyük coşqu ilə qarşılanmış, parlamentin xüsusi təntənəli iclası keçirilmiş, bu hadisə ilə bağlı böyük amnistiya aktı qəbul edilmişdi..

Azərbaycanın müstəqilliyinin elan olunması beynəlxalq aləmdə ona marağın artmasına təkan verdi. Bu dövrdə Bakıda 20-dən çox ölkənin diplomatik missiyaları fəaliyyət göstərməyə başlamışdı. 1920-ci il aprelin ortalarında Azərbaycan parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada Azərbaycan Cümhuriyyətinin diplomatik nümayəndəliklərinin açılması haqqında qanun qəbul etdi. Nəticədə 1920-ci il 28 aprel çevrilişi ərəfəsində Azərbaycan Cümhuriyyəti fəal surətdə beynəlxalq münasibətlər sisteminə daxil olmağa başlamışdı.

## *Mədəni quruculuq*

Cümhuriyyətin yaranması Azərbaycanda mədəni-mənəvi inkişafın yeni mərhələsinin əsasını qoydu. Cümhuriyyət hökumətinin bu sahədə atdığı mühüm addımlardan biri tədris müəssisələrinin milliləşdirilməsinin həyata keçirilməsi oldu. 1918-ci il avqustun 28-də Azərbaycan hökuməti məktəblərin milliləşdirilməsi haqqında tarixi qərar qəbul etməklə Azərbaycan övladlarına öz doğma dillərində təhsil almaq, öz tarixini, ədəbiyyatını, mədəniyyətini öyrənmək imkanını yaratdı.

Çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Cümhuriyyət hökuməti və parlamenti elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qısa müddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerlərində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı.

Xüsusi diqqət yetirilən daha bir sahə Azərbaycan qadınlarının maariflənməsi idi. Ölkənin müxtəlif bölgələrində qadınlar üçün məktəblər, pedaqoji kurslar təşkil

edilmişdi. Yaşlı əhali və türk-müsəlman olmayan vətəndaşlar arasında savadın yayılması və dövlət dilinin öyrədilməsi üzrə tədbirlər də dövlət və ictimai həyatın milliləşdirilməsi siyasəti ilə bağlı idi. Bu məqsədlə Azərbaycan (türk) dilinin öyrənilməsi üzrə kurslar təşkil olunmuşdu. 1919-cu il sentyabrın 1-də elmin və ali təhsilin inkişafında böyük rol oynayacaq iki qanun qəbul edildi. "Bakı Universitetinin yaradılması haqqında" qanunun qəbul edilməsi ilə Azərbaycanda ali təhsilin əsası qoyuldu. Türk dilinin tədrisi bütün fakültələr üçün məcburi hesab olunurdu. Parlamentin həmin tarixli digər qanunu ilə yüz nəfər azərbaycanlı gəncin ali təhsil almaq üçün Avropa ölkələrinin qabaqcıl ali təhsil məktəblərinə göndərilməsi nəzərdə tutulmuşdu.

Azərbaycan hökuməti ölkədə yaşayan milli azlıqların mili-mədəni ehtiyaclarının təmin edilməsi üçün zəruri şəraitin yaradılmasına çalışırdı. Cümhuriyyət dövründə ölkədə onlarla milli-etnik cəmiyyətlər, icmalar, komitələr, şuralar fəaliyyət göstərirdi. Onların arasında erməni, rus, yəhudi, alman, Ukrayna, gürcü və s. millətləri təmsil edən təşkilatlar da var idi. Milli azlıqların ehtiyacları üçün vəsait ayrılması ilə bağlı hökumət bir neçə dəfə qərar qəbul etmişdi. Qarabağ erməniləri ilə bağlanmış sazişə uyğun olaraq 1919-cu il oktyabrın 1-dən Qarabağın erməni xalq məktəbləri üçün xüsusi təftiş bölməsi yaradılmışdı.

Cümhuriyyət dövründə mətbuatın inkişafı, söz azadlığı sahəsində ciddi uğurlar qazanılmışdı. Bu dövrdə ölkədə müxtəlif dillərdə, müxtəlif ideya istiqamətli və siyasi mövqeli 80-dən çox qəzet və jurnal nəşr olunurdu. Azərbaycan Cümhuriyyətində real siyasi hüquq və azadlıqların təmin edilməsində 1919-cu il oktyabrın 30-da qəbul edilmiş "Mətbuat haqqında" Nizamnamə də mühüm rol oynamışdı. Qanun statusu daşıyan nizamnaməyə uyğun olaraq Azərbaycanda mətbuatda senzura ləğv olunmuşdu. Azərbaycan hökuməti insan ləyaqətini alçaldan bütün milli və dini məhdudiyyətləri ləğv edilməsinə nail olmuşdu.

Azərbaycan Cümhuriyyəti dövründə ədəbiyyat, teatr və musiqi, təsviri sənət və memarlıq sahələrində bir canlanma yarandı. Azərbaycan milli və ictimai ənənələri, istiqlalçılıq məfkurəsi Cümhuriyyət dövrü ədəbiyyatında - poeziyada, nəsrdə və dramaturgiyada, teatr sənətində geniş şəkildə təzahür etməyə başlayırdı. "Müsəlman aktyorlar cəmiyyəti" yaradılmış, Nazirlər Şurasının 17 noyabr 1919-cu il tarixli qərarı ilə Dövlət Türk Opera-Dram Teatrı təşkil olunmuşdu.

Xalqın, xüsusən gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün mühüm işlər görülürdü. Bu istiqamətdə həm dövlət orqanları, həm də müxtəlif ictimai təşkilatlar birgə fəaliyyət göstərirdilər. Milli şüurun dirçəlməsində «Səda», «Nəşri-maarif», «Nicat», «Türk ocağı», «Ədəbi yurd», «Müsəlman ədibləri cəmiyyəti», «Yaşıl qələm», "Müsəlman Şərqini öyrənən cəmiyyət", "İstiqlal" muzeyi, Gənclər evi, Xalq Universiteti və başqa mədəni-maarif

təşkilatlarının, milli təmayüllü mətbuat orqanlarının, xüsusən “Azərbaycan” qəzetinin rolu böyük idi. M.Ə.Rəsulzadənin Azərbaycanın tarixi, etnoqrafiyası, coğrafiyası ilə bağlı müxtəlif nəşri orqanlarda dərc edilən yazıları türkçülük və azərbaycançılıq ideyalarının milli şüurda möhkəmləndirilməsində mühüm rol oynayırdı. Azərbaycanda ədəbiyyatın, incəsənətin inkişafında gənc qüvvələrin əməyi böyük idi. Əhməd Cavad, Cəfər Cabbarlı, Əmin Abid, Mirzə Bal Məmmədzadə, Əhməd Şövqi, Xəlil İbrahim və başqaları mili dövlətçiliyin möhkəmlənməsində öz qələmlərinin gücündən məharətlə istifadə edirdilər. Hacıbəyov qardaşlarının teatr truppası fəaliyyətini xeyli genişləndirmişdi. Gəncədə, Naxçıvanda, Şuşada, Şamaxıda gənclərin iştirakı ilə həvəskar dram dərnəkləri təşkil edilmişdi. Teatrların repertuarında klassik əsərlərlə yanaşı, C.Cabbarlının, M.B.Məmmədzadənin, X.İbrahimin əsərləri də xüsusi yer tuturdu.

## *Azərbaycan Cümhuriyyətinin süqutu*

Azərbaycan Cümhuriyyətinin süqutu siyasi, iqtisadi, diplomatik, hərbi amillərlə şərtlənən bir çox daxili və xarici səbəblərlə bağlı idi. 1920-ci ilin yazı respublikada siyasi vəziyyətin kəskinləşməsi ilə səciyyələndi. Siyasi qüvvələr arasında qarşıdurmalar daha da gücləndi. Lakin siyasi böhranın mövcudluğuna baxmayaraq, həmin dövrdə Azərbaycanda "inqilabi şərait" deyilən vəziyyət yox idi.

Cümhuriyyətin varlığı üçün əsas təhlükə şimaldan – Sovet Rusiyasından gəlirdi. 1920-ci ilin əvvəllərində Şimali Qafqazda bolşeviklərin Qırmızı Ordusu ilə Denikinin “Könüllülər” ordusu arasında gedən hərbi əməliyyatlar ikincilərin məğlubiyyəti ilə nəticələndi. Sovet Rusiyası qoşunlarının Azərbaycan sərhədlərinə yaxınlaşması ilə Azərbaycan Cümhuriyyətinin müstəqilliyinə təhlükə daha da artdı. Bolşevik Rusiyasının qəsbkarlıq planlarında Bakı mühüm yer verirdi. Rusiya bolşevik hökumətinin başçısı Vladimr Lenin Qafqaz cəbhəsi Hərbi-İnqilabi Şurasına göndərdiyi teleqramda bunu açıq yazırdı: "Bizim üçün Bakını ələ keçirmək son dərəcə vacibdir. Bütün səyləri bu istiqamətə yönəldin[7].

Yerli bolşeviklər Moskvanın planını həyata keçirmək üçün 1920-ci ilin fevralında Azərbaycan Kommunist Partiyasını yaradaraq silahlı üsyana hazırlaşmağa başladılar. Bu məqsədlə onlara Rusiyadan böyük miqdarda silah-sursat və pul vəsaitləri göndərilirdi. Moskva eyni zamanda Azərbaycana qarşı siyasi-diplomatik təzyiq vasitələrindən də iştirak edirdi. Bu məqsədlə 1920-ci ilin əvvəllərindən Azərbaycan hökumətinə notalar göndərək onu Rusiya daxilindəki

[7] Ленин В.И. Полное собрание сочинений. Издание пятое, т.51, Издательство политической литературы, Москва, 1970, с.191

bolşeviklərlə Denikin arasındakı hərbi münaqişəyə cəlb etməyə çalışırdı. Azərbaycan hökuməti isə bunu başqa dövlətin daxili işlərinə müdaxilə kimi qiymətləndirərək imtina etmiş, eyni zamanda Rusiya ilə bərabərhüquqlu əməkdaşlıq yaratmağa hazır olduğunu bildirmişdi. Lakin həmin şəraitdə Azərbaycan hökuməti öz müstəqil dövlətini Rusiya işğalından qoruya bilmədi. 1920-ci il aprelin 27-ə keçən gecə Sovet Rusiyasının XI ordusu Azərbaycan sərhədlərini pozaraq Bakıya doğru hərəkət etdi. Aprelin 27-də yerli bolşeviklər Azərbaycan parlamentinə ultimatum verərək hakimiyyəti təhvil verməyi tələb etdilər. Parlament Azərbaycanın tam müstəqilliyi saxlanılacağı şərtilə hakimiyyəti təhvil versə də bolşeviklər bu şərtə əməl etmədilər.

1920-ci il mayın ortalarında XI Ordu Azərbaycan Cümhuriyyətinin, demək olar ki, bütün ərazisini nəzarət altına aldı. Beləliklə, Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində Azərbaycan Cümhuriyyəti süqut etdi. Cümhuriyyət süqut etsə də həmin dövrdə əsası qoyulmuş dövlətçilik ənənələrinin mövcudluğu Azərbaycan xalqına 70 illik sovet dövründə öz varlığını, milli mənliyini qorumağa, 1991-ci ildə öz müstəqilliyini yenidən bərpa etməyə imkan verdi.